# İnternet portallarında sintaktik norma pozuntuları

**Elvin Səmədov**
*AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun fəlsəfə doktoru hazırlığı üzrə doktorantı*
**E-mail:** esmes_tx@mail.ru

**Rəyçilər:** filol.ü.e.d., prof. İ.B. Kazımov,
filol.ü.f.d., dos. A.G. Cəfərov

**Açar sözlər:** sintaksis, sintaksis norma, kütləvi informasiya vasitələri, elektron kütləvi informasiya vasitələri, internet, İnternet saytları, sosial şəbəkələrdə normalar, internet portallarında norma pozuntuları

**Ключевые слова:** синтаксис, синтаксическая норма, средства массовой информации, електронные средства массовой информации, интернет, сайты интернета, языковые нормы в социальной сети, неполадки синтаксических норм в порталах интернета

**Key words:** syntax, syntax norm, mass media, electronic media, internet, internet sites, norm in social networks, infringements of norm in internet portals

İnkişaf edən cəmiyyətdə kütləvi informasiya vasitələrinin rolu getdikcə artmaqdadır. Cəmiyyətə lazım olan məlumatın böyük bir hissəsi məhz KİV vasitəsi ilə əldə olunur. "Mətbuat, hər şeydən əvvəl, ictimai-siyasi həyatın güzgüsüdür. Xalqın həyatı mətbuatla bilavasitə yaxından bağlıdır" (6, 85). Son dövrlər internet vasitəsi də KİV-in ayrılmaz bir hissəsinə çevrilmişdir. İnternet vasitəsi ilə məlumatlar daha çevik ötürülür və əldə edilir. Ədəbi dil normaları baxımından yanaşdıqda normaların ən çox pozulduğu yer məhz internetdə olan yazılarda özünü göstərir. Bunun bir çox səbəbləri vardır. Belə ki, internetdən müxtəlif bilik səviyyəsinə malik insanların istifadə etməsi və onların hamısının ədəbi dil normalarını bilməməsi, bununla yanaşı məlumatın tez ötürülməsinə görə redaktə olunmamış yazıların verilməsi və s. misal göstərmək olar. İnternet resuslarının getdikcə təkmilləşməsi gələcəkdə bu problemlərin azalmasını ümid etməyə əsas verir. Ədəbi dil normalarında ən çox norma pozuntuları özünü fonetik və leksik normalarda göstərir. Sintaktik normalarda isə bu nisbətən az hallarda baş verir. Həmçinin internet portallarında da bu belədir. Sintaktik norma pozuntuları digər normalara nisbətən az özünü göstərməkdədir. İnternet portallarında artan sosial media vasitələri interneti bir növ şifahi nitqin bir başa göstəricisinə çevirmişdir. Buna görə də digər KİV-nə nisbətən burada sintaktik norma pozuntuları özünü daha çox göstərməkdədir. Sintaktik norma baxımından yanaşdıqda internet portallarında cümlə quruluşunda, uzlaşma əlaqəsi səviyyəsində, idarə əlaqəsi zamanı, ümumən cümlələrdə zaman quruluşlarında norma pozuntuları özünü göstərir. Məsələn: *"Oğul odur ki, komanda məğlub yenə ona arxa durasan, sevəsən, bağrına basasan, ruhdan düşməyə qoymayasan, növbəti oyuna kökləyəsən".* (Fanat.az; 27.07.2017). Verilmiş nümunədə mürəkkəb cümlə səviyyəsində sintaktik norma pozuntusu baş vermişdir. Beləki, ədəbi dil qaydalarına, əsasən, istər mürəkkəb cümlədə, istərsə də sadə cümlədə mübtəda ilə xəbərin həm kəmiyyətə görə, həm də şəxsə görə uzlaşması olmalıdır. Lakin biz yuxarıda bunun əksinin olduğunu görürük. Burada mübtəda xəbərlə kəmiyyətə görə uzlaşsa da, şəxsə görə düzgün uzlaşmamışdır. Bu

baxımdan cümlə aşağıdakı kimi olmalıdır. *"Oğul odur ki, komanda məğlub yenə ona arxa dursun, sevsin, bağrına bassın, ruhdan düşməyə qoymasın, növbəti oyuna köklənsin".* Nümunəyə diqqət etdikdə görürük ki, burada həmcins üzv formasında uzlaşma əlaqəsi özünü göstərir. Yaxud; "İki nəfər bu səbəbdən suda qayıqda çevrilərək boğulub ölüblər".(Facebook; "Azerbaycan Hekimleri", 28.08.2017, saat 08:30). Verilən nümundə uzlaşma şəxsə görə pozulmasa da, kəmiyyətə görə pozulmuşdur. Mübtəda III şəxsin təkinə aiddir və baxmayaraq ki, say baxımında çoxluğu ifadə edir, dil qaydalarına görə kəmiyyətə görə təkdir. Buna görə də xəbər cəmdə deyil, təkdə olmalıdır. Lakin verilən nümunədə xəbər kəmiyyətə görə cəmdə işlədilmişdir. Bu da sintaktik norma pozuntusuna səbəb olmuşdur. Bildiyimiz kimi uzlaşa əlaqəsi təkcə mübtəda xəbər arasında deyil, həmçinin təyini söz birləşmələri arasında da mövcuddur. Bəzi hallarda internet portallarında bu zaman norma pozuntuları hallarına rast gəlinir. Məsələn: *"Nəticədən narazıyam oyunun 30 dəqiqə ürəyimcə olmadı".* (Qol.az, 15.08.2017, saat 22:19). Sintaktik normalara görə yiyəlik hal şəkilçisi qəbul edən söz özündən sonra ona tabe olan sözün mənsubiyyət şəkilçisi qəbul etməsini tələb edir. Məsələn: *Kitabın cildi, ağacın meyvəsi və s.* Lakin yuxarıda verilmiş nümunədə bu norma pozulmuşdur. Verilmiş cümlə sintaktik normaya əsasən *"Nəticədən narazıyam oyunun 30 dəqiqəsi ürəyimcə olmadı"* kimi olmalıdır.

*"1:0 olaydı, amma San Marinodan qol buraxmadıq"* (Facebook; "Neftchi Baku-Fan page" 4 sentyabr 2017, saat 22:37). Verilən nümunədə sintaktik norma internetdə sosial şəbəkədə pozulmuşdur. Cümləyə diqqət etdikcə cümlənin qarşılıq-güzəşt budaq cümləsi olduğunu təyin etmək olur. Lakin cümlə qarşılıq-güzəşt budaq cümlə olmaq normasından kənara çıxmışdır. Beləki, birinci tərəfdə şərt şəklində işlənmiş komponent öz qarşılığını ikinci tərəfdə əks etdirmir. Bildiyimiz kimi qarşılıq-güzəşt tabeli mürəkkəb cümləsində baş cümlə şərt formasında qarşılaşdırılır və budaq cümlədə olan fikirdə isə komponent bu şərt formasına uyğun bir quruluşda güzəştə gedir və bunu özünün quruluşu vardır. Lakin burada işlədilən cümlədə isə ikinci komponent birinci komponentlə bu baxımdan uyğun gəlmir. Belə olan cümlə quruluşunda budaq cümlənin xəbəri felin arzu formasında olur. Əslində cümlə *"1:0 olaydı, amma San Marinodan qol buraxmayaydıq"* kimi olmalıdır.

Bəzi hallarda internet portollarında sintaktik normanın pozulmasının səbəbi cümlə üzvlərinin hər hansı birinin buraxılmasına görə baş verir. Xəbər başlıqlarını daha pafoslu, diqqətçəkən etmək üçün hansısa üzv cümlədən çıxarılır, lakin cümlənin norma quruluşuna diqqət edilmir. Məsələn: *"Prokuror Əli Həsənovun nəvəsinə istədi"* (Qaynarinfo.az, 18.12.2017). Bildiyimiz kimi təsirlik halda olan feil ismin təsirlik halında olan sözlə əlaqəyə girir. Həmin söz isə obyekt məzmunu daşıyır. Lakin verilmiş nümunədə isə buna əməl edilməmişdir. Buna görə də sintaktik cəhətdən norma pozuntusu baş vermişdir. *"nəvəsinə istədi"* ifadəsinin arasında "istəyin" nə olduğunu fikir olmalıdır və bu zaman cümlə sintaktik normalara uyğun olacaqdır. Nümunədə idarə yalnız idarə əlaqəsi meydana gəlmişdir. Yaxud; *"Görək, bu şərəfsizlər ölkəmizə kimlər yerləşdirib".* (Hakimiyyət.az, 27.09.2017). Verilmiş bu nümunədə də feli xəbər təsirli feldir. Buna görə də fellə aid olan tamamlığın ismin təsirlik halında olması lazımdır. Lakin bunun əksinə olaraq fellə bağlı olan söz təsirlik halında verilməmişdir və bu səbəbdən idarə əlaqəsi baxımından sintaktik norma pozuntusu özünü göstərir. Sintaktik normaya uyğun olaraq cümlə quruluşu *"Görək, bu şərəfsizləri ölkəmizə kimlər yerləşdirib"* kimi olmalıdır.

İnternet portallarında rast gəlinən digər norma pozuntuları kimi cümlə quruluşlarını qeyd etmək olar. Yuxarıda da qeyd etdiyimiz kimi, hansısa xəbərə diqqəti yönəltmək məqsədi ilə cümlə üzvlərinin qrammatik quruluşunda yerdəyişmələr edilir. Bu da norma pozuntusu

yaradır. Məsələn: “*Bakıda iki məhbus qaçıb, qatarla Şirvandan Bakıya aparılarkən”* (AzadlıqRadiosu.az, 25.10.2017). Qeyd edilən nümunədə xəbər öz yerində verilmədiyindən norma pozuntus baş vermişdir. Verilən nümunə *“Bakıda qatarla Şirvandan Bakıya aparılarkən iki məhbus qaçmışdır”* kimi olmalıdır. Cümlədə aktual üzvlənmə də özünü göstərir. Lakin bu norma pozuntusu deyil, məqsəddən asılı olaraq hansısa cümlə üzvünəə diqqəti artırmaq üçün edilən yerdəyişmədir. Beləki, cümlənin qrammatik üzvlənməsi baxımından cümlədə mübtəda cümlənin əvvəlində olmalıdır: *“İki məhbus Bakıda qatarla Şirvandan Bakıya aparılarkən qaçmışdır”.*

*“Lənkəranda beynəlxalq soyqırımı haqda konfrans keçirilir”.* (Qafqazinfo.az, 24.04.2017, saat 16:10). Verilmiş nümunədə sintaktik cəhətdən norma pozuntusunun şahidi oluruq. Azərbaycan dilinin sintaktik normalarına uyğun olaraq mənsubiyyət şəkilçisi qəbul etmiş söz özündən əvvəl gələn müəyyən və qeyri-müəyyən yiyəlik halda olan sözlə birgə söz birləşməsi əmələ gətirərək cümlə üzvü vəzifəsində çıxış edir. Qeyd edilmiş cümlədə isə mənsubiyyət şəkilçisi qəbul etmiş söz qeyd edilən şərtləri ödəmədiyindən burada həm norma pozuntusu, həm də məna anlaşılmazlığı baş vermişdir. Bu cür söz birləşmələri idarə əlaqəsi ilə əsasında yarandığından bunu idarə əlaqəsində norma pozuntusu kimi qeyd edə bilərik. Həmçinin qeyd edilən yazıda bu formalı digər bir norma pozuntusuna da yol verilmişdir: *“Lənkəran Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə “XX əsrdə türk-müsəlman xalqlarına qarşı soyqırımları” mövzusunda IV Beynəlxalq elmi konfrans işə başlayıb.* Bu nümunədə də yuxarıda qeyd etdiyimiz formada sintaktik cəhətdən norma pozuntusuna yol verilmişdir.

*“İşdən çıxarılan şəxs "Hilton”oteli biyabır etdi”* (Qaynar.info, 06.12.2017, saat 15:50). Verilmiş nümunədə xəbər təsirli fel olduğundan ədəbi dilimizin sintaktik normalarına görə ondan əvvəl gələn sözün ismin təsirlik halında olmasını tələb edir. İlk baxışdan *Hilton oteli* birləşməsində *“i”* səsi təsirlik halın şəkilçisi fikrini yaratsa da, əslimdə isə bu səs qeyri-müəyyən yiyəlik halla əmələ gələn ikinci növ təyini söz birləşməsinə aid olan mənsubiyyət şəkilçisidir. Buna görə də onu təsirlik hal şəkilçisi kimi götürərək obyekt məzmunu daşıdığını qəbul etmək səhv olar. Bu halda cümlədə obyektlə feli xəbərin əlaqəyə girərək feli birləşmə əmələ gəlməsi mümkün olmur və idarə əlaqəsi səviyyəsində norma pozuntusu baş vermişdir. Sintaktik norma çərçivəsində isə cümlə aşağıdaki kimi olmalıdır: *“İşdən çıxarılan şəxs "Hilton” oteli biyabır etdi”.*

Bəzi hallarda hər hansı bir mətndə təkarçılığın olması ədəbi dilin ifadəsini çətinləşdirir. Belə halları da normadan yayınma kimi qeyd etmək olar. *“Həmin yazılarda Beyləqanda təhsilin bərbad vəziyyətdə olmasından bəhs olunurdu, təhsil müdirinin özünün və ailə üzvlərinin barəsində şər, böhtan xarakterli məlumatlardan bəhs olunurdu”.* Qeyd edilən nümunə intonasiya yolu ilə əmələ gəlmiş birləşdirmə əlaqəli tabesiz mürəkkəb cümlədir. Bu növ tabesiz mürəkkəb cümlələrin xəbərlərinin eyni olması həm ədəbi dili ağırlaşdırır, həm də norma pozuntusu əmələ gətirir. Verilən nümunədə bu halın olmasının şahidi oluruq. Qeyd edilən tabesiz mürəkkəb tabesiz mürəkkəb cümlədə birinci, yaxud ikinci komponentin xəbərinin fərqli yazılması cümləni sintaktik normalar çərçivəsinə salmış olacaq.

Sintaktik normalara görə cümlənin xəbəri təsirli feldirsə, bu zaman cümlədə iştirak edən obyekt, tamamlıq ismin müəyyən, yaxud qeyri-müəyyən təsirlik halında olan vasitəsiz tamamlıq olmalıdır. İnternet portalından götürülmüş nümunədə isə bu norma pozulmuşdur. Verilmiş nümunədə təyini söz birləşməsi cümlənin xəbərinə aid olan obyektdir, lakin təsirlik halda işlənmədiyini görə xəbərlə bu baxımdan uzlaşa bilmir: *“...bundan sonra ləğv etmə komissiyası qurulacaq: “Dəmir Bank”ın bütün məsuliyyəti hər hansı bir maliyyə qurumuna yaxud banka həvalə edəcək”.* (İqtisadiyyatAnews.az, 23.12.2017, saat 13:19). Qeyd olunmuş

nümunədə tamamlığın xəbərlə əlaqəyə giə bilməsi üçün aşağıda verilmiş formada olması lazımdır: *"...bundan sonra ləğv etmə komissiyası qurulacaq:"Dəmir Bank"ın bütün məsuliyyətini hər hansı bir maliyyə qurumuna yaxud banka həvalə edəcək".* Bu halda cümlə sintaktik normalara uyğun gələn formada olur.

*"Bu addım dünyada dövlətlərarası beynəlxalq münasibətlərə töhfə vermir, bu münasibətlərin daha da gərginləşdirir".* (Apa.az, 23.12.2017, saat 12:10). Nümunə olaraq verilən qarşılaşdırma əlaqəli tabeli tabeli mürəkkəb cümlədə yuxarıda qeyd edilən norma pozuntusuna uyğun pozuntu halı baş vermişdir. İkinci komponentdə təsirli fellə əlaqəyə girməli olan obyekt ismin yiyəlik halında verilmişdir. Bildiyimiz kiçi ismin yiyəlik halında olan söz özündən sora hər hansı bir sözü tələb edir və onunla birgə cümlə üzvünə çevrilə bilir. Lakin cümlədə yiyəlik halda verilmiş söz bu formada qeyd olunamasıdır. Bu da sintaktik səviyyədə cümləni qurulmasında norma pozuntusuna səbəb olmuşdur. Cümlə norma çərçivəsində olması üçün yiyəlik hal şəkilçisi götürülməlidir, ya da qeyd etdiyimiz kimi yiyəlik halın tələb etdiyi və təsirli fellə əlaqəyə girə bilən bir söz əlavə olunmalıdır. Bu halda cümlə sintaktik normaya uyğun bir şəkildə olacaqdır. Məsələn: *"Bu addım dünyada dövlətlərarası beynəlxalq münasibətlərə töhfə vermir, bu münasibətləri daha da gərginləşdirir".* Həmçinin *"bu"* işarə vəzliyindən sonra durğu işarəsinin cümlədə qeyd edilməməsi sintaktik norma pozuntu yaratmışdır. Yaxud: *"...əgər Konstitutsiya Məhkəməsi bu məsələni sırf hüquqi nöqteyi-nəzərdən incələyəcəksə banklara sərf edən qərarın qəbul edilməsi ehtimalı çox yüksəkdir".* Nümunə olaraq verilmiş qarşılaşdırma əlaqəli tabeli mürəkkəb cümlədə də komponentlər arasında cümlənin sintaktik quruluşuna aid olan durğu işarəsi (*vergül)* verilməmişdir. Fikrimizcə, digər sintaktik norma pozuntuları kimi, bu da sintaktik norma pozuntusu olaraq qeyd edilməlidir.

Qeyd edilən hal sintaktik norma pozuntusu ilə yanaşı, cümləd məna anlaşılmazlığı da yaradır. Bu cür hallara internet portallarında tez-tez rast gəlinir. Belə norma pozuntuları cümlənin sintaktik quruluşu ilə bağlı olduğundan bu halın qeyd edilməsini məqsədəuyğun hesab edirik. (əlavə nümunə yenə ver)

*"Banklar da əgər verdiyi krediti toplaya bilmirsə və ya yeni kredit xətləri aça bilmirsə, deməli, qazanc əldə edə bilmir, qazanc əldə edə bilmirlərsə də maliyyə vəziyyətləri getdikcə pisləşir".* (Azxeber.com, 25.12.2017, saat 19:35). Nümunə olaraq verilmiş qarşılaşdırma əlaqəli tabeli mürəkkəb cümlədə sintaktik norma pozuntusu özünü göstərir. Belə ki, nümunənin qara şiriftlərlə verilmiş komponentlərinin əlaqələnməsində sintaktik norma pozulmuşdur. Qarşılaşdırma budaq cümləsinin beş məna növü vardır. Qeyd edilən məna növü ziddiyyətli qarşılaşdırma budaq cümləsidir. "Budaq cümlə ilə baş cümlənin məzmunları bir-biri ilə ziddiyyətli surətdə qarşılaşdırılır". (4, 364). Lakin burada *"də"* bağlayıcısı sintaktik norma və məna pozuntusuna səbəb olur və cümlənin anlaşmaz olmasına səbəb olur. Komponentlər arasında ziddiyyət əlaqəsi deyil, güzəşt mənası yaradır. "Bu məna növünə daxil olan tabeli mürəkkəb cümlələrdə, adətən, budaq cümlə baş cümlədən əvvəl gəlir və baş cümlə budaq cümlədə söylənən fikrə güzəştə gedir". (2, 215). Lakin komponentlərin birləşməsindən əmələ gələn məna özündə ziddiyyət daşıyır.

Həmçinin qeyd olunan nümunədə komponentlər arasında budaq və baş cümləri bir-birindən ayıran durğu işarəsinin işlədilməməsi də sintaktik norma pozuntusuna aid olan bir haldır.

Yaxud:*"Dövlət bunu edirsə daxili borclarda da problemlərin də bir qismini öz üzərinə götürməlidir".* (anews.az, 23.12.2017, saat 13:19). Nümunədə sintaktik normalara daxil olan durğu işarəsinin qeyd edilməməsi ilə yanaşı, *"də"* bağlayıcısının iştirakı norma pozuntusu

yaratmışdır. *"-da, -də"* bağlayıcısının cümlənin bir komponenti daxilində təkrar iştirakı həmcins üzvlər arasında mövcud olur və həmcins üzvləri əlaqələndirir. Bu hal sintaktik normaları təşkil edir. Lakin verdiyimiz nümunədə bu qayda pozulmuşdur. Burada bağlayıcının hər ikisi tamamlıqlarla əlaqədə olsalar da, birinci tamamlıq vasitəli tamamlıq, ikincisi isə vasitəsiz tamamlıq olduğundan sintaktik cəhətdən norma pozuntusu vardır. Fikrimizcə, qeyd olunan cümlənin *"Dövlət bunu edirsə daxili borclardakı problemlərin də bir qismini öz üzərinə götürməlidir"* kimi verilməsi daha məqsədəuyğun hal olardı.

İnternet portallarında təyini söz birləşmələrində də norma pozuntuları vardır. Bu zaman bəzi hallarda təyini söz birləşmələrini əmələ gətirən komponentlər əlaqələnərkən normadan yayınma halları baş verir. Məsələn: *"Görkəmli bəstəkarlarımız yubileyləri münasibətilə konsert proqramı təşkil olunmuşdur".* Qeyd edilən nümunədə yiyəlik hal şəkilçisinin iştirak etməməsi ilə söz birləşməsində sintaktik norma pozuntusu baş vermişdir. Burada həm idarə əlaqəsi səviyyəsində, həm də uzlaşma əlaqəsi səviyyəsində sintaktik norma pozulmuşdur. "Bu birləşmələrin də tərəfləri arsında qarşılıqlı tabelilik əlaqəsi var: birinci tərəf idarə əlaqəsi ilə ikinci tərəfə, ikinci tərəf isə uzlaşma əlaqəsi ilə birinci tərəfə tab olur"(4, 51).

Qeyd olunmuş nümunə sintaktik normalar baxımından aşağıdakı formada verilməlidir: *"Görkəmli bəstəkarlarımızın yubileyləri münasibətilə konsert proqramı təşkil olunmuşdur".*

*"Sabah Santiago Bernabeuda azarkeşlər hakimə qarşı 7-ci dəqiqədə ağ bayraq və ya kağızlara etirazı gözlənir".* (Facebook sosial şəbəkəsi, "Avropa liqaları" 15.08.2017). Qeyd edilmiş nümunədə idarə əlaqəsinin pozulmasına görə sintaktik norma pozuntusu halı baş vermişdir. Burada idarə əlaqəsi ilə birgə uzlaşma əlaqəsi də pozulmuşdur. Belə ki, üçüncü növ təyini söz birləşməsi əsasında aəmələ gələn idarə əlaqəsində eyni zamanda uzlaşma əlaqəsi də vardır. "Üçüncü növ ismi söz birləşmələrinin tərəfləri arasında da sintaktik əlaqə qarşılıqlıdır. Uzlaşma əlaqəsinə görə hər iki tərəf eyni qrammatik formada olur. İdarə əlaqəsində isə ikinci tərəf birinci tərəfi özündən asılı edeərək onun müəyyən yiyəlik halda işlədilməsini tələb edir" (1, 74). Qeyd edilən nümunə aşağıdakı kimi verildikdə normalara uyğun gəlir: *"Sabah Santiago Bernabeuda azarkeşlər hakimə qarşı 7-ci dəqiqədə ağ bayraq və ya kağızlara etirazı gözlənir".*

İnternet portallarında elə hallar olur ki, cümlə quruluşları düzgün verilmir və bu da həm məna anlaşılmazlığına, həm də sintaktik norma pozuntusuna səbəb olur. Məsələn: *"Qeyd edək ki, 10-cü maddəsinə tütün çəkilməsinə icazə verilməyən yerlər qeyd edilib".* (Qaynarinfo.az, 29.12.2017, saat 20:35); və ya *"Niyə vəsaiti Sahibkarlığa Kömək Milli fonduna qaytarmayı Fonddan bildirilib ki, bu bankla vəziyyət aydınlaşandan sonra vəsaitin hara ödəyəcəyini deyəcəkmişlər", - deyə Q.Həsənquliyev əlavə edib".* (mia.az, 29.12.2017, saat 14:17). Qeyd edilmiş birinci nümunənin quruluşuna diqqət etdikdə görürük ki, burada "*10-cü maddəsinə"* ifadəsi özündən əvvəl gələn yiyəlik hal şəkilçisi ilə əlaqəli şəkildə cümlə quruluşunda iştirak etməlidir. Lakin bu hal cümlədə qeyd olunmamışdır, bu norma pozuntusuna səbəb olmuşdur. İkinci nümunədə də bu halla rastlaşırıq. Bu nümunədə isə demək olar ki, sintaktik norma pozuntusundan başqa, məna anlaşılmazlığı daha çox özünü göstərir. Həm zaman uyuşmamazlığı sintaktik cəhətdən norma pozuntusu kimi özünü göstərir. *"Təhlükəli olduğu qədər bizləri maraqlandıran yeraltı dünyasının ən böyük "ata"-ları kimlərdir?".* Bu nümunədə də yuxarıda qeyd etdiyimiz formada norma pozuntusu baş vermişdir. Burada mənsubiyyət şəkilçisi qəbul etmiş söz yiyəlik hal şəkilçisi ilə birləşmə əmələ gətirərək cümlə üzvü olmalıdır. Lakin bunu biz nümunədə görmürük. Bu da norma pozuntusu hesab edilir.

*"2018-ci ildə bu tendensiyanın davam edəcəyini deyən nazir qeyd edib ki, diaqnostik*

*qiymətləndirmələrin başa çatdırılır və sınaqdan keçən müəllimlər məvaciblərini artırmaq imkanı qazanırlar".* (Qaynarinfo.az, 28.12.2017, saat 11:22). Azərbaycan ədəbi dilinin sintaktik normasına əsasən, yiyəlik hal şəkilçisindən sonra mənsubiyyət hal şəkilçisi qəbul etmiş söz gələrək həmin sözlə birgə cümlə üzvü kimi cümlədə çıxış edir. Lakin nümunədə bu hal pozulmuşdur. Cümlə düzgün quruluşda verilməmişdir, bu da sintaktik norma pozuntusudur. Yaxud: *"Yeniçağ.az xəbər verir ki, "Palmali" şirkətinə məxsus "SHIRVAN" gəmisi, aralıq dənizi fırtınalı hava şəraitində həyəcan siqnalı qəbul edərək, batan qayıqdan borta alaraq 5 nəfəri xilas edib".* (Yeniçağ.az, 30.12.2017, saat 18:02). Nümunədə cümlənin qrammatik üzvlənməsi pozulmuşdur. Qrammatik üzvlənməyə görə zərf xəbərdən sonra işlənir və mümkün təyinlər isə təyin etdikləri sözdən əvvəl verilir. "Qrammatik üzvlənmədə cümlənin üzvlərinin təbii ardıcıl düzülüşü öyrənilir. Bu cəhətə əsasən cümlədə əvvəl mübtəda, sonra xəbər işlənir. Cümlə geniş olduqda mübtədadan əvvəl onun təyini, xəbərdən əvvəl tamamlıq, zərflik və əgər ismi xəbər varsa, onun mümkün ola bilən təyini yerləşir". (5, 165). Lakin burada bu baxımdan cümlə üzvlərinin sırası pozulmuşdur. Belə hal dilçilikdə aktual üzvlənmə adlanır. Aktual üzvlənmə, əsasən, üslubi xarakter daşıyır və intonasiya hesabına nitqdə ağırlıq yaratmır. Qrammatik üzvlənməyə görə cümlə aşağıdakı kimi verilməlidir: *"Yeniçağ.az xəbər verir ki, "Palmali" şirkətinə məxsus "SHIRVAN" gəmisi, aralıq dənizi fırtınalı hava şəraitində həyəcan siqnalı qəbul edərək, 5 nəfəri batan qayıqdan borta alaraq xilas edib".*

*"Nura Suri niyə "Casa del Arte"ni niyə seçdi?".*(ais.az, 27.12.2017,Saat, 15:47). Azərbaycan dilinin sadə cümlə quruluşunun sintaksis normasında bir cümlə tərkibində iki və daha artıq sual ədatının təkrar edilməsi norma pozuntusu sayılır. Verilən nümunədə isə biz bu halın şahidi oluruq. Qeyd edilən nümunədə sual ədatlarının birinin ixtisar edilməsi lazımdır. Bu halda cümlə sintaktik normalar çərçivəsində olacaqdır.

*"Qeyd etdiyimiz ki, bundan əvvəl ABŞ və Rusiya arasında Bakıda 2 dəfə görüş keçirilib".* (cebhe.info, 08.01.2018, saat, 14:53). Azərbaycan dilinin sintaktik normalarına əsasən mənsubiyyət şəkilçili sözdən sonra *"ki"* bağlayıcısının işlədilməsi norma pozuntusu yaratmış olur. Buna görə də, verilmiş nümunədə sintaktik norma pozuntusu hadisəsi baş vermişdir. Verilmiş nümunədə baş cümlənin *"Qeyd edək ki,"; "Qeyd etdiyimiz kimi,"* və s. formalarda işlədilməsi daha məqsədəuyğun olar.

Sintaktik norma pozuntularının əsas səbəblərindən biri kimi rus dilli insanların Azərbaycan dilində danışarkən cümlə quruluşunu rus dilində qurmağa cəhd etmələridir. Belə ki, hər iki dildə cümlə quruluşu fərqli olduğundan norma pozuntuları özünü göstərir.

İnternet portallarında sintaktik normalarının pozulmasının əsas səbəblərindən biri də internetə bu məsələdə nəzarətetmə mexanizminin olmamasıdır. Belə halların qarşısının qismən də olsa alınması üçün rəsmi sayt və internet səhifələrində işləyən insanların bu yönümlü təlimlərə cəlb edilməsi məqsədəuyğun sayıla bilər.

**Məqalənin aktuallığı.** Sosial şəbəkələrdə norma pozuntularının, xüsusən, sintaktik norma pozuntularının olması dilçilikdə problemli məsələlərdən hesab olunur. Bu baxımdan məqalə aktuallığı ilə seçilir.

**Məqalənin elmi yeniliyi.** Məqalənin elmi yeniliyi ondan ibarətdir ki, sosial şəbəkələrdə olan norma pozuntuları nümunələrlə verilmişdir və bu nümunələr üzərində tədqiqat aparılmışdır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən bloger, sayt rəhbərləri, sosial şəbəkələrdə rəsmi səhifə sahibləri, eləcə də jurnalistika fakültəsində təhsil alan tələbələr yararlana bilərlər.

## Ədəbiyyat

1. Azərbaycan SSR Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutu, Müasir Azərbaycan dili. Bakı: Elm, 1991.
2. E. Quliyev. Televiziya: Nəzəriyyə, inkişaf meyilləri. Bakı: Şərq-Qərb, 2014.
3. Ə. Abdullayev. Müasir Azərbaycan dilində tabeli mürəkkəb cümlələr. Bakı: Maarif, 1974.
4. Müasir Azərbaycan Dili. "Sintaksis". "Şərq-Qərb", Bakı, 2007.
5. Müasir Azərbaycan dili. Sintaksis. Bakı: Ünsiyyət, 2000.
6. S. Məmmədova. Kütləvi informasiya vasitələri və dil. Bakı: Elm və Təhsil, 2009.

**Е. Самедов**

## Неполадки синтаксических норм в порталах интернета

## Резюме

В статье было затронуто синтаксическим нормам и проблемам их неполадки в порталах интернета. Как один из новых направлений информации такие случи встречаются больше всего в других средствах СМИ.

Это имеет определенные причины. Основная причина то, что для предотвращения неполадки синтаксических и других грамматических норм в порталах интернета пока не существует. хот один стандартный механизм. Поэтому, такие проблемы появляются больше всего.

Однако и надо отменить то, что в направление малейшего соблюдения нормы в действующем сайте и в другой информации интернета, действие существует. В статье этим и другим таким проблемам было коснуто и были даны объяснение по образцам. По нашим мнениям, это, как новая область исследования и также из-за имеющиеся нужды решение таких вопросов существование письма таких типов является важным вопросом.

**E. Samadov**

## Infringements of syntax norm in internet portals

## Summary

Syntax norms and infringements in them are mentioned in the article. As the new branch of media such cases are often met in other mass media. It has certain reasons. The main reason is that there is no standard mechanism prevent from infringements either in syntax or in grammar.

Therefore such problems appear more. It must be mentioned some standards are partly followed in some official sites and other internet press. Such issues have been mentioned and explained with examples in the article.